# El qədrini bilənlərin biri...

Hər bir insanın doğumu-köçümü Tanrımız tərəfindən nizamlanmışdır. Bizə verilən ömür tarlamızşumlanmış, hazır bir ömür torpağında xeyirxahlıq əkməkdən, insana, elə -obaya xidmətdən gözəl əməl ola bilərmi?!-Əlbəttə yox, deyəcəksiniz və sizin də bu fikir -haqq sözü təsdiqləməyiniz özü də bir xeyir əməldir...

İnsanlar müxtəlifdir. Hər bir insanın da həyata öz baxışı, öz düşüncə tərzi və duyum ölçüsü var. Elə imkan sahibləri var ki, yalnız öz evini və uşaqlarını düşünərək yaşayırlar. Belələri çox böyük imkanından yaşadığı el-oba, yurd üçün bir qəpik belə, xərcləmək barədə düşünmürlər...

Yaşadığımız cəmiyyətdə kimin kim olduğunu ictimaiyyət yaxşı bilir, düzgün qiymətləndirir və yeri gələndə mənfi halları qınaq obyektinə də çevirirlər... Mənim son 20 ildə təəssüfləndiyim bir məqam da odur ki, yaxşı bir iş görənə də hansısa bir "qulp" qoyur, görülmüş xeyir əməli gözdən salmağa çalışırlar. Belələrinə xalq arasında haqlı olaraq; dargözdü, könlünün gözü kordu, deyərək, həqiqi qiymətini verirlər...

Danışacağım bir xeyirxah insan barədə söhbətimə-yazıma başlamazdan əvvəl yazdığım "lirik ricət" sövqi-təbii olaraq, beynimdən keçib nitqimə gəldiyi üçün bunları söyləməyə zəruri bir ehtiyac duydum...

El arasında müdrik ağsaqqalların, savadlı, istedadlı övladlarının çoxluğuna görə Salmanbəyli kəndinə Kəbirlilərin baş kəndi və yaxud paytaxtıdır, deyirlər. Vaxtilə kəndimizin ağsaqqalları aranda və dağda el-oba, ümumi camaat üçün çox işlər görmüşlər.

...Heç bir qeyri-adi hərəkətləriylə indiyə qədər yaşıdlarından seçilməyən Həsənov İsmixan Məhəmməd oğlu 30 ilə yaxındır ki, Bakı şəhərində məskunlaşıb. Bu müddət ərzində hər vaxt kəndinin xeyir-şərində iştirak etməyi özünə borc bilir, gecikdiyi, çatdıra bilmədiyi hüzür yerlərinə sonrakı səfərində baş çəkir, maddi yardım göstərir, yasin oxutdurur.

Doğulub boya-başa çatdığı kənddən Bakıya gətirilən xəstələri yoxlayır, "yastığın yüngül olsun" deyib xəstənin başı altına bir "məktub" qoyub deyir ki, həkimlə danış, ya da mənə zəng vur, gəlim səni gətirim, bir az kəndimizdən danışarıq, söhbətləşərik...

Qanunu gözləməyən, haqq sözü demək cəsarəti ilə seçilən, köksünün altında bir kövrək, həssas ürək gəzdirən Məhəmməd kişinin oğlu da bu insani xüsusiyyətləriylə genetik kodun daşıyıcısı kimi özünü göstərməli, tanıtmalıydı...

Mən dünyanın hər üzünü görmüşəm, müxtəlif vəzifələrdə işləmişəm. Gəldiyim bir ümumi qənaətim budur ki, tutduğu mövqeyindən, siyasi baxışından asılı olmayaraq, insanın yalnız bir əsas vəzifəsi var, o da insanlıq vəzifəsidir və hər bir insan bu vəzifəni ləyaqətlə yerinə yetirmək üçün fədakarlıq göstərməlidir.

İ.Həsənovun rayonun girəcəyindəki yolun üstündə bir aptеki var. Rayonda aptek çox olsa da, bu aptek Salmanbəylilərin "ümid yeri"dir. Ev şəraitində, xəstəxanada xəstə olanlara qəfil müxtəlif dava-dərman, sistem qoşulması üçün ləvazimatlar gərək olur. Xəstənin yiyəsi-valideyni, qohumu, dostu neyləməlidir ki, xəstə həmin anlarda imkansızlığını hiss etməsin və ümidsizləşməsin ki, dərmanı necə alacaqlar? - Belə vəziyyətdə İsmixan Həsənovun, eloğlumuzun apteki yada düşür. "Təcili yardım" rolunu oynamaq bu aptekin qismətindədir. Bəzən elə olur ki, həmin vaxtda aptekdə olmayan dərmanı qonşu aptekdən alıb gətirirlər. Bax, əsl iman sahibi olmaq, ətrafındakını duya bilmək, onun ağrısını yaşamaq belə olur. Belə hərəkətin böyük hərflərlə yazılmalı bir adı da İnsanlıqdır!

İşi düzəlmiş xəstəsinin yanında utanmayan adamlar bəzən borcu qaytarmağa gecikirlər. Kimin nə aldığının aylıq hesabı telefonla aptek sahibinə, bir elin sevimli övladına çatdırılır. Bu yerdə İsmixanın sözü kəsə olur: O borcun üstündən xətt çəkin. Pulu gətirsələr də almayın, deyin ki, xəstənin müalicəsinə xərcləsinlər...

Belə epizodları İ.Həsənovun-bir kəndin böyük ürəkli xeyriyyəçi övladı barədə demək, söyləmək istədiklərimizə bir açar rolu oynayır...

Kəndimizdən köhnə rayon pambıq məntəqəsinə qədər olan torpaq yol 8 km-dir. Bu yaxınlara kimi yol çox bərbad haldaydı. İ.Məhəmmədoğlu bu yolun da "kürəyi"nə əl çəkdi. Həmin yol lazımi texniki qaydalarla hamarlandı və üstü qumlu-çınqıllı daşla yenidən örtüldü və yolumuz əvvəlki rahat-işlək həyatına qayıtdı...

Qeyd etməyimiz yerinə düşər ki, kənd yolunun çəkilişində Əsgərov Əli Həmzə oğlu və Bünyadov Füzuli Sultan oğlu öz mənəvi, maddi dəstəkləri ilə dostları İsmixanın bu xeyirxah işini-ideyasını yüksək qiymətləndirib, alqışlamışlar...

Doğmalarımızın uyuduğu kənd qəbiristanlığının "bünövrə"si Ağamalı babanın sözləri ilə qoyulub. O, kəndin Qalatəpə istiqamətində (Qarqar çayına gedən yolda) kanalın üst tərəfindəki düzənlikdə dəfn olunmağını vəsiyyət eyləyib və bununla da təzə bir qəbiristanlıq yaranıb. İş- gücümüzün arxasınca getdiyimiz kimi, dünyasını dəyişənlərimizi dəfn etməyə, onları ziyarət etməyə gedəndə də bu yolu keçirik...

İsmixan Məhəmmədoğlu bu yolu da unutmayıb. Bu yolun da təmirinə -abadlaşmasına və rahatlığına imza atıb. Yayda tozdan, qışda zığ əlindən keçilməz olan bu yolun da "donunun" təzələnməsinə xərc çəkib, əmək sərf edib səxavətli eloğlumuz. Ən önəmlisi odur ki, həmin qəbiristanlığa baxmağı, təmizliyini və qorunmasını qardaşı Həsənə tapşırıb. Bununla da həmin "sükut məkanı"nda olan babasının-nənəsinin, valideynlərinin, qardaşının, qohumlarının və eyni zamanda orda yatan müəllimlərinin-Azərbaycan elmini, Kəbirli zəkasını dünyaya tanıdan neçə-neçə alimin, loğmanın, cavan köçən eloğlularının ruhunu şad etməsi çox təqdirəlayiq bir haldır...

Bu gün bir qapıya su çəkdirməyin maddi çətinliyini yaxşı bilirik. Kreditin məngənəsində boğulan camaatın maddi durumunun ağır olduğu bir zamanda dünyadan köçmüşünü yola vermək üçün (yayda, qışda əl-üzünü, üst-başını yumaq, təmizləmək, üçün-S.K.) qəbiristanlıqda suya böyük ehtiyac duyulurdu. Bu problemi həll etmək üçün xeyirxah insanlardan İsmixan Həsənov kənddəki şirin su quyusunun yanında 10 metr hündürlükdə su çəni qoyduraraq, kənddən 2 km -aralıda olan qəbirstanlığa su çəkdirməklə həmkəndliləri üçün çox savab bir iş görmüşdür.



Mən də bu yazımda İsmixan Həsənovun etdiklərini sadalamaq deyil, onun az bir zaman kəsiyində gördüyü könül açan, alqışa layiq nəcib əməllərinə güzgü tutmaq istədim.

Və üzün həmişə ağ olsun, İsmixan qardaşım, deyirəm! Sənə eloğlum kimi, qardaşım kimi, balam kimi də yanaşa bilərəm. Amma indi bu yazımın qəhrəmanı sənsən. Bayraq baş üzərinə qaldırılmalı olduğu kimi, mən bu yazımın övqatıyla səni bağrıma basır, əllərimin gücü və ürəyimin təpəri ilə səni boyumdan yuxarı qaldırıram!..

Ola bilər ki, bəzi ağzıgöyçəklər məni qınayar, bu dediklərimdə suclandırarlar. Amma mən ömrüm boyu vicdanıma hesabat verərək bir könül xoşluğu ilə yaşamışam. Ürəyimdən keçən xeyir əməli də həyata keçirə bilməyəndə ağrıyıram... Ürəyincə yarımayan, istedadının tutumunca tanınmayan eloğlumuz N.Əlioğlunun beytini tez-tez xatırlayıram:

**Portret-oçerk**

**Haqq-hesab çəkməsəm özüm-özümdən,**
**Yaşamaq büsbütün düşər gözümdən!**

Əzizim İsmixan! Sən həyatda bir ömrü bir məram üstündə qurmusan: Sənin ürəyinin hökmü, özünün özünlə haqq-hesab çəkməyinin nəticəsi bu gün öz bəhrəsini verir. Tanrı mənə bir az ürəkləri oxumaq qabiliyyəti də verib: - Sən gördüyün işlərinlə, əməllərinə özünə bir heykəl qoydun- bu məlumdur, artıq görünür, təsdiqlənir. Ancaq dediyim odur ki, elinə-obana "yiyə" durmaqdan daxili bir rahatlıq keçirir, mənəvi həzz alırsan və bundan sonra özün də öz gözündə ucalırsan. Bu həzzi isə yaşayanlar bilir! Mən bir söz əhli kimi ağlımın kəsərincə, ürəyimin tutumunca sənin bədii obrazını publisistik bir dillə verməyə, yaratmağa çalışıram...

Biz ata qanıyla yaranır, ana südüylə mayalanırıq. Ata çörəyi yeyib, ana südü əmirik. Atandan gələn təmiz qanın, anandan əmdiyin saf süd sənin halalındır və bu dünyada bir "köhnə kişi" tutulu adını qazanmağın sənə ana südü kimi halaldır!!!

Yaddaşına nə qədər etibar etsəm də, başqa nə işlər görüb, bizim gözəl qardaşımız deyə, öz-özümə sual verəndə gözlərimin qabağında kəndimizdə ali məktəbə qəbula gedənlərin əksəriyyətinin lövbər saldığı "liman" İsmixan bəyin evi olduğunu xatırladım. Bu isə təhsilə verilən qiymətin və çox böyük insanpərvərliyin, elseverliyin bir göstəricisi olub, doğmalığın, insana yanmağın, el sevgisinin zirvəsidir!!!

Kəndimizdən orduya-hərbi xidmətə çağrılanları bağrına basar, öpər, yaxşı yol arzulayar İsmixan qardaşım. Hər qara bayramda elimizdən köçənlərin, haqq dünyasında olanların ruhuna rəhmətlər deyib, sonra da quran oxutduran bu insan bir nümunə, etalondur!

Yeri gəlmişkən qeyd edim ki, kəndimizdə həkim nəzarətində 4 xəstə övlada öz aptekindən vaxtaşırı ehtiyac olduğu qədər dava-dərmanı verir bu xeyirxah eloğlum.

İsmixan xeyirxahlıqda bir örnək olmaqla həm də öyrədəndir. Gör-götür dünyası bir məktəbdir. İsmixan həm də müəllimdir! Ancaq ona ən çox yaraşan ad - bəy adıdır. Bəylik, bəyzadəlik, yüksək humanizm daşıyıcısı olan, könlündə bir alicənablıq, səxavət bağı əkib-becərən, zadəganlığı, aristokratlığı ilə seçilən bu həmyerlimə İsmixan bəy deməkdən qürur duyuram!!!

El arasında zamanın sınağından çıxan bir deyim var: - Aşıq gördüyünü çağırar". Bu mənada İsmixan bəyin bu sətirlərin müəllifinə də əvəzsiz hörməti olub: düşdüyü maşın qəzası nəticəsində 23-il yataq xəstəsi olan ömür-gün yoldaşım, balalarımın anası Zülfiyyə xanım Bakının müxtəlif xəstəxanalarında mütamadi müalicə alıb.

23 il ərzində neçə dəfə Bakıya getmişəmsə, hər dəfə İsmixan bəy, həyat yoldaşı ilə birlikdə məndən çox əziyyətə qatlaşıb, xanımımı hər dəfə evlərinə aparıb öz doğmaları kimi qulluq edib, qayğısına qalıb... Kövrəldiyim bu məqamda bir əmi doğmalığıyla sənə bir daha xeyir-dua vermək istəyim doğuldu: - Tanrı İsmixanımızı bizə bərk əliylə versin, onun hər bir işinin sualını asand eyləsin, deyirəm!..

Kəndimiz-kəndçilərimiz üçün doğma məkan olan Salmanbəyli müqəddəs yurd yeridir. Kəbirlilərin həlimliyinin, sakitliyinin nüvəsində bir ildırım "qəzəbi"də var. Bu camaat ana yurdları olan Şuşanı yerli və yadelli işğalçılardan qoruyanda qəzəblərini dəfələrlə sübut ediblər. Tərəkəmə elatlarının böyük bir qolu olan Kəbirlilər "ipək kimi mülayim, xəncər kimi kəsərli" olan xarakterləriylə özlərinə qarşı olanda, insafları son anda yol vermir ki, döyüdüklərini yenə döysünlər, yıxdıqlarını öldürsünlər...

Dünyanın ən müqəddəs məskəninin sakinləri olan Kəbirlilərin Salmanbəyli camaatı indiyə kimi, nə üstündəsə bir-birini öldürməyiblər -bu faktdır. Bu insanlığın-nəcibliyin, ləyaqətin nümunəsi deyilmi?! Bu kəndin sakinləri, Allahın ən sevimli bəndələridir. Bu kəndin övladları özlərini kiminsə həyatını söndürmək, suçlu bilinmək xətasından həmişə çəkiniblər. Bu kəndin sakinləri insana Allahın əmanəti kimi baxırlar deyə, əmanətə xəyanət olmaz, -fikir-düşüncəsiylə yaşayırlar...

Nə sərvət, nə qərəz, nə şöhrət-vəzifə üstündə bir-birinə qıymazlar, toxunmazlar ki, vicdana hesabat verəndə utanmasınlar. Belə bir müqəddəs saydığım kəndin neçə-neçə İsmixan bəy kimi mərd oğulları papaq altda xeyirxahlığa məqam gözləyirlər. İnanıram ki, vaxt olacaq kəndimizin övladları el-oba üçün xeyirxahlıq yarışına girəcəklər, -həmin vaxtlarda çox istərdim ki, birinci növbədə, indi hamarlanan, qaydaya salınan yolumuza asfalt döşənilsin. Halal qazancla edilən hər bir xeyirxahlıq, görülən hər bir iş savab sayılır. Həzrət Əli buyurub: "Zərrə qədər yaxşılıq, zərrə qədər pislik sahibinə qayıdır". Bu yerdə həmkəndlimizin, böyük şair, filosof Ə. Elburusun bir bənd şeiri fikrimizə şərik olur:

Bir vüsal üstündə kökləyib tarı,
Çalardım xoş keçən illər önündə!
Dünya mən olsaydım ağzın başları,
Əyərdim qabarlı əllər önündə!

Halallıqdan doğulan səxavətə, mərdanəliyə eşq olsun deyirəm! Və bu "eşq olsun"un ən əzəmətlisi İsmixanımıza, elimizin bu geniş ürəkli, yurdsevər övladına düşür!

Peyğəmbərimiz Məhəmmədin (ona Tanrının rəhməti olsun - S.K.) bir kəlamını misal çəkmək istəyirəm: "Bir könül ziyarəti yüz həccə dəyər". Əziz qardaşım İsmixan bəy! Sən gördüyün xeyir əməllə, savab işlə bir elin könlünü şad etmisən. Bunu isə Uca Yaradan bilir...

Bir eloğlun kimi, bir yaşlı nəslin nümayəndəsi kimi, bir söz adamı kimi, sənə xeyir-dua verməyim lazımdı. Bu vacibdi və çox gərəklidi! Bir adamdan razı qalınanda ürəklə, "Allah ürəyinə görə versin", sonra da onu Allaha tapşırır; "Tanrı səni qorusun, ailənə- balalarına, el-obana gözü dolusu versin", deyirlər, söyləyirlər...

Mən də bu gün sidq ürəklə, çox böyük səmimiyyətlə;-sən mənim torpağımın, elimin gözəl balasısan, gözəl günlərlə, könül xoşluğu ilə, həmişə ömrün-həyatın gülsün, deyirəm...

... Kəndimizin bir övladının səxavət "boy-buxununu"nu, lirik boyalarla verməyə çalışdığım İsmixan bəyin gördüyü xeyriyyə işlərinə işıq salmaq, onun xarakterinin görünməyən tərəflərini ictimailəşdirmək arzum, düzəltdirdiyi yolla gedərkən ürəyimə yol tapmışdı... İstədim ki, bir kəndin sakinlərinin gördüklərini, el qədrini bilən övladımız haqqında daha çox insan bilsin...

...Böyük yazar C.Məmmədquluzadə demişdir: "Qələmin müqəddəs vəzifəsi xalqın rifahı naminə xidmət etməkdir". Bu mənada əlində qələm tutanların ən ümdə vəzifəsinin biri, xalqına öz xeyirxah əməlləriylə yarıyanların ömür yoluna bir "söz işığı" salmaq olub, xalqa böyük ürəkli övladlarımızın kimliyini, hansı əqidə sahibi olduğunu çatdırmaqdır...



**Süleyman Kəbirli,**
**Yazıçı-publisist**
**"Tərəkəmə" qəzetinin**
**redaktoru**